# Vətənin ölməz qəhrəmanları

## ONLAR QƏLBİMİZDƏ ƏBƏDİ YAŞAYACAQ

Tarix boyu Azərbaycanın mərd, cəsur oğulları ölümün gözünə qorxmadan dik baxıblar. 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim savaşı apararaq canından keçən Milli Ordumuzun dağ cüssəli qəhrəman əsgər və zabitlərinin hər birinin xatirəsi bizə əzizdir.

*Bu günlərdə torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxan igid oğullarımız şəhid Saday Məmmədəliyev, şəhid Sərxan Salahov və şəhid Cavid Nuruyev dərin ehtiramla yad olundular.*

### Şəhid Saday Məmmədəliyevin xatirəsi yad edilib

Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan Məmmədəliyev Saday



Rza oğlunun xatirəsi Ordubad rayonunun Darkənd kəndində ehtiramla yad edilib, məzarı ziyarət olunub.

Anım tədbirində şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini, İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Polis Şöbəsinin, Sosial Xidmətlər Agentliyinin əməkdaşları, hərbi qulluqçular və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirdə çıxışlar dinlənilib, şəhidin ruhuna dualar oxunub.

Çıxış edənlər Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən qəhrəmanların xatirəsinin daim ehtiramla yad edildiyini bildiriblər. Şəhid Saday Məmmədəliyevin həyat və döyüş yolu haqqında məlumat verilib, onun gənc nəsil üçün əsl vətənpərvərlik və qəhrəmanlıq nümunəsi olduğu vurğulanıb.

Sonda məktəblilər tərəfindən şəhidin xatirəsinə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

Qeyd edək ki, Saday Məmmədəliyev 1998-ci il martın 1-də Ordubad rayonunun Darkənd kəndində anadan olub. Orta təhsilini Aza kənd məktəbində aldıqdan sonra hərbi xidmətə yollanıb.

Hərbi xidmətini xüsusi təyinatlı kimi başa vurduqdan sonra hərbiyə olan marağı və Vətənə bağlılığı səbəbindən xidmətini davam etdirərək MAXE kimi fəaliyyət göstərib.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu olan Saday Məmmədəliyev 2020-ci il oktyabrın 11-də Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak edib. Döyüşlər zamanı XT qrupunda kəşfiyyatçı-radioteleqrafçı kimi xidmət göstərib, Şuşa istiqamətində gedən ağır döyüşlərdə şücaətlə vuruşub. Ailəsi ilə sonuncu dəfə 24 oktyabrda əlaqə saxlayaraq Şuşaya çox az qaldığını bildirib.

Saday Məmmədəliyev 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. O, Ordubad rayonunun Darkənd kəndində dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Saday Məmmədəliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

### Şəhid Sərxan Salahovun doğum günü ehtiramla anılıb

Şəhid Salahov Sərxan Həsənqulu oğlunun doğum günü münasibətilə Şərur Rayon Şəhidlər xiyabanında anım tədbiri keçirilib.

Tədbirdə şəhid Sərxan Salahovun ailə üzvləri və digər şəhid ailələri, həmçinin müharibə əlilləri və qazilər iştirak ediblər. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Şərur Rayon Sosial Xidmətlər Agentliyinin sektor müdiri, Şərur Rayon Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri, Şərur Rayon Dini İcmasının sədri, rayon ictimaiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları və digər qonaqlar mərasimə qatılıblar.

Tədbiri açıq elan edən Şərur Rayon İcra Hakimiyyətinin Müharibə iştirakçılarr və şəhid ailələri ilə işin təşkili sektorunun müdiri Ceyhun Davıdov əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunmasını elan edib.

Sonra çıxış edən Ceyhun Davıdov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin və rayon rəhbərliyinin salamlarını tədbir iştirakçılarına çatdırıb. O, Vətən uğrunda canından keçən qəhrəman oğullarımızın şərəfli döyüş yolundan bəhs edərək onların igidliyinin xalqımızın yaddaşında əbədi yaşayacağını vurğulayıb. Qeyd edib ki, şəhid ailələrinə və müharibə əlillərinə göstərilən diqqət və qayğı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir.

Mövlud tədbirində çıxış edən şəhid ailə üzvləri, qazilər və digər natiqlər II Qarabağ savaşında Sərxan kimi qəhrəman el oğullarımızın göstərdiyi şücaətin gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi olduğunu bildiriblər. Çıxışlarda şəhidlərin müqəddəs amal uğrunda canlarını fəda etdikləri vurğulanaraq onların xatirəsinin daim yaşadılmasının hər bir azərbaycanlının



mənəvi borcu olduğu qeyd edilib.

Anım mərasimində şəhidimizin əziz xatirəsi dərin ehtiramla yad olunub, ruhuna dualar oxunub. Sonda şəhidlərimizin məzarları üzərinə tər gül dəstələri düzülərək onların xatirəsinə sonsuz hörmət və ehtiram ifadə edilib.

### Şəhid Cavid Nuruyevin ad günü qeyd edilib

Şəhid leytenant Cavid Əşirəf oğlu Nuruyevin doğum günü münasibətilə Şərur Rayon Şəhidlər Xiyabanında anım tədbiri keçirilib. Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin Müharibə iştirakçıları və şəhid ailələri ilə işin



təşkili sektorunun müdiri Ceyhun Davıdov açıq elan edib. Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını fəda edib şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ceyhun Davıdov çıxışı zamanı Vətən uğrunda canını fəda edib şəhidlik zirvəsinə ucalan igidlərin qəhrəmanlığından, keçdikləri şərəfli döyüş yolundan bəhs olunub, onların əziz xatirəsinin daim uca tutulduğu xüsusi vurğulayıb. Qeyd edib ki, ölkə Prezidenti tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə göstərilən diqqət və qayğı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olub və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Şərur Rayon Sosial Xidmətlər Agentliyinin sektor müdiri, Şərur Rayon Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri, Yeni Azərbaycan Partiyasının Şərur Rayon təşkilatının əməkdaşları, Şərur Rayon Dini İcmasının sədri, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Şərur Rayon idarəsinin rəis əvəzi, şəhid ailələri, müharibə əlilləri, rayon ictimaiyyəti, hüquq-mühafizə orqanlarının əməkdaşları və digər qonaqlar iştirak edib.

Sonda şəhidlərimizin ruhlarına dualar oxunub, məzarları üzərinə tər gül dəstələri düzülüb. Şəhid leytenant Cavid Əşirəf oğlu Nuruyevin xatirəsi dərin ehtiramla yad olunub, Vətən uğrunda canından keçən igidlərimizin ruhuna sonsuz rəhmət dilənib.